***KÖRPƏLƏR BABASI SƏN,  HEYDƏR BABA***

Azəri xalqının ümid çırağı,
Elin atasısan, sən Heydər baba.
Hər yerdə qoy gəlsin sənin sorağın,
Körpələr babası sən, Heydər baba.

Çətin sınaqlardan heç sarsılmadan,
Dünyanı gəzmisən, sən yorulmadan.
Qoy sənə yar olsun ulu yaradan,
Körpələr babası sən, Heydər baba.

Dünyaya tanıtdır Azərbaycanı,
Sənin tək dünyada sərkərdə hanı?
Şöhrətin fəth edib bütün dünyanı
Körpələr babası sən, Heydər baba.

Vətən sənin fəxr eləyər adınla,
Qoy öyünsün şöhrətinlə, şanınla.
Torpağa bağlısan bütün canınla,
Körpələr babası, sən Heydər baba.

Xalqımızın qibləgahı,
Ömrümüzün nur çırağı,
Vətənimizə tanrı payı,
Körpələr babası, sən Heydər baba.

***Aynur Hüseynova***
***Bakı şəhəri, 74 saylı orta məktəbin 5-ci sinif şagirdi.***
***Savalan. – 1999. – 9 dekabr. – S.1.***